# *Giorgi TATAR:* "İşğaldan azad edilmiş ərazilərə gəldiyim zaman heyrət içində idim"

**"Mən ilk dəfə Şuşaya noyabr ayında getmişdim. İşğaldan azad edilmiş ərazilərə gəldiyim zaman heyrət içində idim. Dağıntıların necə ağır və ciddi olduğunun şahidi oldum. Hər yer çox qəddarcasına və vəhşiliklə dağıdılmışdı. Mən orada Xocalı sakini ilə görüşmüşdüm. Özümü çox qəribə və hüznlü hiss edirdim. Bundan sonra da necə hiss edəcəyimi bilmirəm".**

AZƏRTAC xəbər verir ki, bunu "Xocalı: Barışıq üçün etiraf et" koalisiyasının macarıstanlı nümayəndəsi Giorgi Tatar söyləyib.

"Bizim həm Azərbaycan, həm də Ermənistan tərəfindən olan dövlət məmurlarını, təmsilçilərini və sıradan vətəndaşları eyni "dəyirmi masa"da bir araya gətirərək barış üçün addım atmaq planlarımız var", - deyə Giorgi Tatar vurğulayıb.



Azərbaycan.- 2023.-26 fevral.- S.4.